# BÖYÜK QƏLƏBƏNİN AÇARI

*(Əvvəli ötən sayımızda)*

Kitabdan oxuyuruq: “Hitlerçilərin paraşütçü təxribatçı casus qruplarının Azərbaycan ərazisinə, xüsusən də cəbhəni yanacaqla qidalandıran Bakıya tez - tez düşməsi ilə əlaqədar Azərbaycan XKS və Azərbaycan KP MK 1942 - ci ilin iyununda “Azərbaycan SSR ərazisində düşmən paraşütçüləri və təxribatçıları ilə mbarizənin gücləndirilməsi haqqında” Qərar qəbul etdi. “(səh.71). Təxribatçılar bir qayda olaraq rus dilini bilir və Sovet zabitinin geyimində gəzirdilər. Bu səbəbdən də xüsusi xidmət orqanlarının əməkdaşlarına həmin şəxsləri tapıb aşkara çıxarmaq mühüm bir vəzifə kimi həvalə olunmuşdu. Yalnız xalqını, vətənini sonsuz bir məhəbbətlə sevən, onun yolunda ürəyini şam kimi əritməyə hazır olan, hər bir xeyirxah, alicənab əməli ilə millətinə şəxsi nümunə göstərməyi bacaran böyük rəhbər M.C.Bağırovun misilsiz təşkilatçılığı sayəsində Vətənimizə gizlin soxulan bəd niyyətli faşist təxribatçıları burda ciddi dağıntılar, böyük fəlakətlər törətməyi bacarmadı. Çünki, bu təxribatçıların böyük əksəriyyəti vaxtında tapılıb zərərsizləşdirildi. Müharibə illərində həmçinin xalqın gecə - gündüz çəkdiyi fədakar zəhmət dəfələrlə yüksək mükafatlara layiq görüldü. Kitabdan oxuduğumuz bu cümlələr bir növ fikirlərimizin təsdiqi kimi səslənir: “1943 - cü ildə Azərbaycan neft sənayesi kollektivləri 99 dəfə Ümumittifaq Sosializm yarışında qalib çıxdı, 26 dəfə DMK - nın Keçici Qırmızı Bayrağını və 29 dəfə birinci pul mükafatını aldılar. Neft hasilatı, neft məhsulları istehsalı üzrə hökumətin tapşırıqlarını yerinə yetirən Azərbaycan neftçilərindən 502 nəfəri 1944 - cü ilin yanvar ayında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən orden və medallarla təltif olundu. “ (səh. 75). Cəmi 56 il ömür sürmüş akademik Yusif Məmmədəliyevin müharibənin çox ağır günlərində yüksək oktanlı benzini ixtira etməsi görülən böyük işlərin fonunda əsil tarixi hadisəyə çevrildi.

Mən təxminən 20 il bundan əvvəl görkəmli yazıçı - tədqiqatçı Manaf Süleymanovla onun öz evində görüşüb müsahibə almışam. Onda Manaf müəllimin yaşı 80 - i ötmüşdü və otağın içində zorla hərəkət edirdi. Söhbət M.C.Bağırovdan düşəndə Manaf müəllim onun haqqında çox müsbət fikirlər söylədi və qeyd etdi ki, məhz bu böyük, fədakar insan 1948 - ci ildə Azərbaycan xalqını bütünlüklə Sibirə sürgün edilməkdən və məhv olmaqdan xilas edib. Təsəvvür edin ki, o vaxt bədxah Mikoyan bizə Krım tatarlarının aqibətini yaşatmaq məqsədi ilə xalqımızı Sibirə sürgün etmək barədə qərar hazırlayıb Stalinə imza atdırmışdı. Yalnız bundan sonra Bağırov bu alçaq niyyətdən xəbər tutub Moskvaya getmiş, böyük ürəyinə, tutarlı sübutlara, bir də əziz dostu, xalqımızın xeyirxahı L.P.Beriyaya güvəndiyi üçün Stalinlə görüşüb bu müdhiş planı ləgv etdirmişdi. Əgər Bakı nefti 2 - ci Dünya müharibəsinin taleyini həll edibsə, Azərbycanda gedən irimiqyaslı işlərin başında duran, neftin emal edilib Rusiyaya göndərilməsi ilə yanaşı, 104 adda silahın, o cümlədən faşistləri vahiməyə salan “katyuşanın” istehsalına birbaşa nəzarət edən Bağırov bu xeyirxah əməlləri ilə çox böyük tarixi uğurlara imza atmışdır. Manaf müəllimin bu müdrik, qətiyyətli sözlərindən sonra mən tərəddüdlərdən, daxili şübhələrdən qurtulub Bağırov haqqındakı fikirlərimi tam müsbət tərəfə yönəltmiş oldum. Sonrakı illərdə Ramiz Əhmədovun, Teyyub Qurbanın və Adıgözəl Məmmədovun bu böyük şəxsiyyətə həsr etdiyi sanballı kitablardan xəbər tutdum və bu kitablar mənim müsbət qənaətlərimi daha da möhkəmləndirmiş oldu. Akademik Z.Səmədzadənin bu kitabında da M.C.Bağırovun titanik fəaliyyətindən böyük könül xoşluğu ilə söhbət açılır. Kitabda həmçinin onun bizə qarşı vaxtaşırı olaraq torpaq iddiası ilə çıxış edən erməni millətçilərini necə yerində oturtması barədə konkret faktlarla söhbət açılır: “M.C.Bağırov öz fəaliyyəti boyunca Azərbaycanın ərazi bütövlüyünü sarsıtmaq istəyən erməni millətçilərinə qarşı həmişə sərt olmuş, öz barışmaz mövqeyini bildirmişdir. Bunun da bariz nümunəsini onun Marietta Şaginyanın yazdıqlarına münasibətində görmək olar. M.Şaginyan 1946 - cı ildə “Sovet Zaqafqaziyası” adlı kitab nəşr etdirir. Onun Dağlıq Qarabağ məsələsinə toxunduğu bu kitab Bağırovun kəskin qəzəbinə səbəb olur. M.C.Bağırov Şaginyanı səhvə yol verməkdə, tarixi faktları təhrif etməkdə təqsirləndirir. O, bu barədə xüsusi məktubla ÜİK(b)P MK katibi A.A.Jdanova müraciət edir. Nəticədə həmin bədnam kitab aradan götürülür, Şaginyandan isə izahat alınır.” (səh.86). Xalqının, vətəninin yolunda bu qədər çalışıb can qoyan, çoxlu sayda rəsmi təltiflərə, o cümlədən beş dəfə “Lenin” ordeninə layiq görülən M.C.Bağırov yazıqlar olsun ki, irin, qan qoxuyan bədnam bir rejimin daxilində yaşayıb mübarizə aparırdı. Bu rejim yaxşıların çox böyük əksəriyyətinə adam kimi normal yaşamaq imkanı vermirdi: ya Müşfiq kimi 29 yaşında qətlə yetirir, ya da Cəfər kimi 34 yaşında, Vurğun kimi 50 yaşında çərlədib öldürürdü. Ağır seyid kimi ömrü boyunca haqq, ədalət uğrunda ən böyük mübariz olan Mir Cəfər də etdiyi saysız - hesabsız yaxşılıqların müqabilində həbs olundu və Partiya Nəzarəti Komitəsinin bədnam qərarı ilə saxta ittihamlar, əsasında mühakimə edilərək güllələndi.

O, bu məhkəmədə də tarix yazmağı bacardı. Adətən biz belə görüb eşitmişik ki, məhkəmələrin sonunda müttəhim hakimdən aman diləyib, günahının dərəcəsindən asılı olmayaraq cəzanın yüngülləşdirilməsini arzulayıb. Amma xeyirxah əməlləri günahından min dəfələrlə artıq olan Mir Cəfər nəinki aman diləmədi, əksinə, dedi ki, məni güllələmək yox, dörd yerə bölüb tikə - parça eləmək lazımdır. Çünki indi onunla birlikdə mühakimə olunan və haqlı olaraq ən ağır cəzaya məhkum edilən qriqoryanlara, markaryanlara, yemelyanovlara, Borşov, Atakişiyev kimilərə ötən bu illər ərzində güvənib inanmış, vətənin, xalqın taleyini bu alçaqlara etibar etmişdi. Mir Cəfərin oğlu Cahangir Bağırov da əsil atasının adına layiq bir övlad kimi tarixə düşməyi bacardı. İxtisasca qırıcı-təyyarəçi olan Cahangir müharibə başlayan kimi ağır döyüşlərə atılır. Qolundan yaralanıb Bakıda, hospitalda müalicə olunur. Tam sağalmamış atasına belə bir məktub yazır: “Ata, harda qızğın döyüşlər gedirsə, mən də orda olmalıyam. Çünki mən Vətənimin oğluyam, sənin oğlunam. Cavan, sağlam ola - ola arxada oturub qalmışam. Ata, kaş biləydin ki, gözümü qaldırıb insanların gözünün içinə baxmağa necə də utanıram.” (səh.132). Bəli, atası bu cür mərd, vətənpərvər oğulun istəyinə qarşı çıxa bilməzdi. Cahangir azacıq sağalan kimi tələm - tələsik özünü cəbhəyə çatdırıb ağır döyüşlərə atılır. 1943-cü il iyun ayının 5 - i onun son döyüş günü olur. Həmin gün o, iki düşmən təyyarəsini məhv edir. Sonra isə döyüş sursatının bitdiyini görüb növbəti ağır alman qırıcısının üzərinə şığıyıb tarana gedir və hər iki təyyarə elə havadaca yanıb külə dönür. Bu ağır döyüşdə Cahangir Bağırov qəhrəmancasına həlak olur. Aviasiya marşalı Stepan Kraçovski bu barədə öz kitabında ətraflı bəhs etmişdir. Ən naraqlısı budur ki, Cahangir Bağırov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. Ata Bağırov deyir ki, mənim oğlum heç kəsin balasından artıq deyil və övladına verilmiş Qəhrəman adını ləğv etdirir. Sonra Cahangir Bağırov Yasamal qəbristanlığında torpağa tapşırılır. 1956-cı ildə M.C.Bağırovun məhkəməsindən sonra hakim onun son xahişinin nədən ibarət olduğunu soruşur. O, qəbristanlığa gedib oğlunun məzarı ilə vidalaşmaq arzusunda olduğunu bildirir. Kitabın bu yerində oxuyuruq: “Azərbaycanlı “konvoylar” rus komandirlərindən xahiş edirlər ki, kənara çəkilib Mircəfərin öz oğlu ilə vidalaşmasına şərait yaratsınlar. Vidalaşma 1 saat 26 dəqiqə çəkir. Bu günə qədər heç kəsin qarşısında əyilməyən, dosta, düşmənə çox güclü görünən N.C.Bağırovun göz yaşları ara vermədən Cahangirin qəbrinin üstünə damcılayır, sinə daşını yuyurdu. Mir Cəfər qurumuş dodaqları ilə qəbrüstü abidəni son dəfə dönə-dönə öpməkdən doymurdu.” (səh. 134). Kitabda barəsində müfəssəl söhbət açılan görkəmli şəxslərdən biri də ölkə başçımız İlham Əliyevin babası, böyük şəxsiyyət, gözəl həkim, görkəmli ictimai-siyasi xadim Əziz Əliyevdir. Məhz M.C.Bağırovun respublikaya başçılıq etdiyi illərdə, məhz onun sayəsində Əziz Əliyev bir sıra çox məsul vəzifələrdə çalışır. Tibb Universitetinin, sonra BDU - nun rektoru, Azərbaycanın Səhiyyə Komissarı, Ali Sovetin katibi, sonra sədri, Azərbaycan KP MK-nın üçüncü katibi, Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi, Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru, SSRİ Ali Sovetinin deputatı kimi çətin və şərəfli vəzifələr onun həyat və əmək bioqrafiyasının bəzəyinə çevrilir. Hər kəsə yaxşı məlum olduğu kimi, Ümummilli liderimizin ömür - gün yoldaşı, cənab Prezidentin anası, akademik Zərifə xanım Əliyeva da bu ailədə anadan olub. Müharibə illərində Bakıda görülən işlər təkcə neftin çıxarılması, quyuların qazılması, neftin emalı və tələb olunan məkanlara çatdırılması ilə bitmirdi. Müharibənin ilk ilindən başlayaraq, bir çox silah zavodları Bakıya köçürüldü və tədricən yenilərinin də yaradılmasına başlandı. Kitabın növbəti səhifəsində bu barədə oxuyuruq: “1941-ci il oktyabr ayının 24-də Azərbaycan KP MK-nın növbəti Büro iclası keçirildi. İclas iştirakçıları Bakı şəhərinin müəssisələrində Şpaqin konstruksiyalı tapança-pulemyotların, əl qumbaralarının, minamyotların və onlara aid patron - mərmilərin, partlayıcı maddələrin, tank əleyhinə butulka istehsalının genişləndirilməsi, hərbi hissələrin ehtiyaclarını ödəməkdən ötrü traktorların lazımi avadanlıqla yenidən quraşdırılması kimi məsələləri müzakirə etdilər və müvafiq qaydada qərar qəbul edildi.” (səh. 123). Mənim atam və əmilərim yaşca kiçik olduqları üçün müharibədə iştirak edə bilməmişdilər, amma dayılarımdan ikisi döyüşlərdə iştirak etmiş, onlardan biri - Məhyəddin dayım cəbhədə həlak olmuşdu. İndi də onun 21 yaşında kapitan rütbəsindəki şəkilləri yaxın qohumlarımızın albomlarını bəzəyir. Amma Şəmsəddin dayım ondan yaşca böyük idi və müharibədən sonra yaşadığı otuz ilə yaxın müddət ərzində ufuldaya - ufuldaya ayaq sümüyünün içində güllə gəzdirdi.




*(Davamı var)*

***Bayram AFURCALI,***
***publisist-fotoqraf***